# BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ İNFORMASİYA ŞÖBƏSİNİN

# 2021-ci il üçün

# H E S A B A T I

**BAKI - 2021**

## GİRİŞ

### Şöbənin fəaliyyəti

Bakı Dövlət Universiteti kütləvi informasiya vasitələri ilə müntəzəm əlaqə yaratmaq, əldə olunan yeniliklərin və nailiyyətlərin mətbuatda işıqlandırılmasını təmin etmək, eləcə də ictimaiyyətlə əlaqələrin qurulması işinin təşkili 2021-ci ildə də uğurla davam etdirmişdir.

Şöbənin fəaliyyət istiqamətləri Universitetin fəaliyyəti ilə bağlı ictimaiyyətin operativ və mütəmadi məlumatlandırılması, kütləvi informasiya vasitələri ilə əlaqələrin

qurulması, Universitetin informasiya təminatının həyata keçirilməsi, təbliğat-təşviqat işlərini aparılması, Universitetin fəaliyyətinin KİV-də dolğun və operativ işıqlandırılmasının təmin edilməsi, Universitetin fəaliyyətinin KİV-də işıqlandırılmasının, ictimaiyyətlə əlaqələrin dinamikasının, təbliğat-təşviqat işlərinin təhlillərinin aparılması, Universitetin struktur bölmələrinin KİV və ictimaiyyətlə əlaqələrinin koordinasiyalı təşkil olunmasına metodiki rəhbərliyin həyata keçirilməsindən ibarətdir. Şöbə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq informasiya strategiyası, reklam və mətbuatla iş siyasətini, universitetin ictimayyətlə əlaqələrinin düzgün koordinasiya və effektli idarə edilməsini, ictimaiyyətin BDU ilə bağlı informasiya ehtiyaclarının ödənilməsini və şəffaf universitet imicinin qorunmasını, inkişaf etdirilməsini təmin etmək məqsədi ilə fəaliyyət göstərir.

Cari ildə Şöbə BDU-nun respublikamızın kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlığını təşkil etmiş, universitetin elmi-pedaqoji və ictimai-mədəni həyatını dövri mətbuatda yüksək səviyyədə işıqlandırmışdır. Həmçinin, BDU-da təhsilin və tədrisin keyfıyyətinin yüksəldilməsi, tələbələrin biliyinin qiymətləndirilməsi zamanı şəffaflığın və obyektivliyin təmin edilməsi, bu elm və təhsil müəssisəsində informasiya-kommunikasiya texnologiyalarının uğurlu tətbiqi, eyni zamanda universitetin maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində həyata keçirilən islahatların dövri mətbuatda günün tələbləri səviyyəsində təbliğ edilməsi İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin fəaliyyətinin əsas mahiyyətini təşkil etmişdir. Şöbənin səmərəli fəaliyyəti nəticəsində ölkəmizin aparıcı kütləvi inforınasiya vasitələri ilə sıx əməkdaşlıq qurulmuş, universitetin həyatı dövri mətbuatda və televiziyada mütəmadi şəkildə işıqlandırılmışdır.

Şöbənin Əsasnaməsi ilə müəyyən edilən səlahiyyətlər çərçivəsində İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi Universitetin fəaliyyəti ilə bağlı ictimaiyyətin məlumatlandırılması, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması, informasiya təminatı, təbliğat-təşviqat işlərinin aparılması sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin əmr və sərəncamlarını, Bakı Dövlət Universitetinin Nizamnaməsini, Bakı Dövlət Universitetinin rektorunun əmr, sərəncam və göstərişlərini, Universitet Elmi Şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur. Şöbə bu Əsasnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə

yetirərkən və hüquqlarını həyata keçirərkən Bakı Dövlət Universitetinin struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

**Şöbənin vəzifələri** Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Universitetin ictimaiyyətlə əlaqələr strategiyasının (PR strategiyası) və siyasətinin qurulması sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirmək, İnformasiya xidmətinin təşkili - faktların informasiyalaşdırılması, mətbuatı hazır materiallarla təmin etmək, sorğuları təmin etmək, mətbuatın və televiziyanın çıxışlarını izləmək, lazım gəldikdə səhvləri və qüsurları dərhal təsbit etmək üçün tədbirlər görmək və yaxud təkziblər vermək, Universitetin informasiya bazasını yaratmaq, mətbuatda işıqlandırılmış materialları arxivləşdirmək, Universitetin struktur bölmələrinin ictimaiyyətlə əlaqələrini, təbliğat-təşviqat və maarifləndirmə işlərini koordinasiyalı təşkil etmək, əlaqələndirmək və həyata keçirmək, bu istiqamətdə mərkəzləşdirilmiş vahid yanaşmanı təmin etməkdən ibarətdir.

Mətbuat konfransları, brifinqlər, qəbullar, görüşlər təşkil etmək, mətbuatın fəaliyyətinin monitorinqini aparmaq, yerli və xarici mətbuatın Universitetin fəaliyyəti barədə dərc etdiyi və ya yaydığı informasiyalar barədə Universitetin əməkdaşlarını və tələbələri məlumatlandırmaq, Universitetin internet saytını, sosial şəbəkələrdəki rəsmi səhifələrini effektiv idarə etmək, struktur bölmələrinin internet saytını, sosial şəbəkələrdəki rəsmi səhifələrinin idarə edilməsinə nəzarət etmək, Universitetin fəaliyyəti ilə bağlı KİV-in, ictimaiyyətin sual və sorğularını  cavablandırmaq vəzifələr sırasındadır.

Şöbə həmçinin KİV-də universitet və ali təhsillə bağlı gedən məlumatları toplamaq, sistemləşdirmək və arxivləşdirmək, Universitetin fəaliyyətinin KİV-də işıqlandırılması, şəffaflığın təmin olunması məqsədilə Universitet tərəfindən görülmüş işlər barədə müvafiq məlumatların ictimaiyyətə çatdırılmasını təmin etmək, press-relizlər, məlumat bülletenləri, bəyanatlar, müsahibələr, çıxışlar və s. hazırlamaq, Universitet rəhbərliyinin və digər vəzifəli şəxslərinin KİV-də çıxışlarını, mətbuat konfranslarını, brifinqlərini, ictimaiyyətlə görüşlərini təşkil etmək, əlaqələndirmək və Universitet tərəfindən keçirilən tədbirlərdə KİV nümayəndələrinin iştirakını təmin etmək, Universitetin KİV-lə və ictimaiyyətlə əlaqələrində səmərəliliyin artırılmasına, bu sahədə mövcud münasibətlərin yaxşılaşdırılmasına dair mütəmadi təkliflər vermək, Universitet tədbirləri ilə bağlı ictimaiyyət və universitet əməkdaşlarını məlumatlandırmaq məqsədilə bülletenlər hazırlamaq və xəbərlərin elanını vermək işlərini də həyata keçirir.

Şöbənin əməkdaşlar arasında iş bölgüsü aparılır, onların fəaliyyətini əlaqələndirilir, əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edilir; Şöbəyə həvalə edilmiş

vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədlərin təsdiq edilməsini təmin edilir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edilir. Qanunvericilik aktlarının və təşkilati-sərəncam sənədlərinin şöbə tərəfindən vaxtında və lazımi səviyyədə icrasını təmin edilir. Şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində digər struktur vahidlərindən zəruri məlumat və sənədləri alır. Şöbəyə daxil olan məktub, ərizə, şikayət və təkliflərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını, onların vaxtında və düzgün cavablandırılmasını təmin edir, kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edilir, şöbəni funksional fəaliyyətə uyğun olaraq universitet tədbirlərində təmsil olunur.

BDU-da ictimaiyyətlə əlaqələrin yeni müstəvidə qurulması, ictimaiyyətin Universitetin tədris, təlim-tərbiyə prosesi, elmi fəaliyyət və sosial həyatında baş verən yeniliklərlə tanış edilməsi, təcrübə mübadiləsi və s. məqsədilə ictimaiyyətlə əlaqələr və informasiya təminatı işi yenidən qurulmuşdur. BDU, onun fakültə və struktur bölmələrinin, tabeliyindəki qurumların fəaliyyəti ilə bağlı ictimai təşkilatlar, elm və təhsil müəssisələri, yaradıcı birliklər, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri iləsıx və səmərəli əlaqələr yaradılmış, Universitetin tədris, təlim-tərbiyə prosesi, elmi fəaliyyət və sosial həyatında baş verənyeniliklərlə,görülən işlər, perspektiv layihələrlə bağlı ictimaiyyətə müntəzəm operativ və dolğun məlumat verilmişdir.

Şöbənin **informasiya təminatı** sistemli yerinə yetirilmiş, struktur bölmələrinin KİV və ictimaiyyətlə əlaqələri koordinasiya edilmiş, ictimaiyyətlə əlaqələrin dinamikasının, təbliğat-təşviqat işlərinin təhlilləri aparılmışdır. Faktlar informasiyalaşdırılmış, mətbuat və ictimaiyyətdən daxil olmuş sorğuları yerinə yetirilmiş, mətbuat konfransları, müsabiqələr, görüşlər təşkil edilmiş, mətbuatın monitorinqi aparılmışdır. Universitetin üç dildə rəsmi internet səhifəsi, sosial şəbəkələrdəki rəsmi hesabları effektiv idarə edilərəkUniversitetdə aparılan islahatlar, ixtiralar, kafedra və laboratoriyaların fəaliyyəti ilə bağlı davamlı olaraq məqalələr mətbuatda dərc olunmuşdur.

İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi ictimaiyyətlə əlaqələr işinin yenidən qurulması və yeni əlaqələrin qurulmasında hədəflər müəyyənləşdirmişdir. Universitetlə media arasında əlaqələri genişləndirmək məqsədilə əməkdaşlıq edilən kütləvi informasiya vasitələri ilə bərabər yeni media nümunələri ilə əlaqələr qurulmuş və inkişaf etdirilmişdir. İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi media ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyindən ölkədə fəaliyyət göstərən bütün televiziya, radio, informasiya agentlikləri, xəbər portalları, qəzet və jurnallarla sıx əməkdaşlıq edir. Universitet

tədbirlərinə dəvət olunan jurnalistlər ictimai maraq kəsb edən informasiya ilə təmin olunurlar. BDU-mətbuat əməkdaşlığının uğurlu nəticəsidir ki, artıq universitet xəbərlərinə təkcə yerli mediada deyil, Türkiyə, Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Qazaxstan, Qırğızıstan və s. kimi ölkələrin mətbuatında da rast gəlmək mümkündür.

Hesabat dövründə Bakı Dövlət Universitetinin tədris, təlim-tərbiyə prosesi, elmi fəaliyyət və sosial həyatında baş verən yeniliklərlə bağlı materiallar ölkənin AZƏRTAC, APA, “Azərpress”, “Trend”, “Olaylar”, “SalamNews”, “Səs” və s. informasiya agentlikləri, "Azərbaycan", “Xalq qəzeti”, “Respublika”, “Azərbaycan müəllimi” "525-ci qəzet", "Ədalət", "İki sahil", "Olaylar", "Palitra", "Üç nöqtə", "Şərq" və s. kimi dövri mətbuat orqanlarında, Azertag.az, Trend.az, Tehsil-press.az, Qafqazinfo.az, Rupor.az, Moderator.az, Az.strategiya.az, Salamnews.org, Mektebgushesi.az, Buta.ws, Aqreqator.az, Tehsil.biz, Rezonans.az, Muallim.edu.az, Azerforum.az, Avropainfo.az, Azpress.az, Palitranews.az, Mediapress.az, Azxeber.com, Qht.az və s. yeni media orqanları, AzTV, ATV, REAL TV, ARB24, Space, Baku TV və s. kimi nüfuzlu kütləvi informasiya vasitələrində 1000-dək müxtəlif tipli material işıqlandırılmışdır.

Bakı Dövlət Universitetinin **rəsmi saytı - bsu.edu.az-da** informasiya yayımını da İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi həyata keçirir. Ölkədə informasiya texnologiyaları sahəsində aparılan dövlət siyasətini təhsil və tədrisdə tətbiq etmək, Bakı Dövlət Universitetində təhsil və elmin naliyyətlərinin dünya müstəvisində yayılmasını və təbliğini təmin etmək, BDU-nun beynəlxalq əlaqələrini daha da genişləndirmək və sturktur bölmələrinin informasiya texnologiyaları sahəsində elmi-texniki və tədris potensialını yüksəltmək məqsədilə www.bsu.edu.az saytının işi təkmilləşdirilmiş və uğurla fəaliyyət göstərməkdədir. Hazırda universitetin 16 fakültəsi və müxtəlif qurumları üzrə internet saytlarının və səhifələrinin fəaliyyəti və yenilənməsi üçün veb-masterlər təyin edilmiş, bütövlükdə saytın fəaliyyətinə və onun idarə olunmasına ümumi rəhbərlik İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinə həvalə edilmişdir.

Eyni zamanda, saytın yeni versiyasının məzmununun yenilənməsi şöbənin əməkdaşları tərəfindən işlənib hazırlanır.

2021-ci il ərzində Universitetin rəsmi saytında 1521 material yayımlanıb. Onlardan 1219-u xəbər, 187-si müəllif yazıları, 115-i müsahibədir.




Ölkə mediasında Universitetin 1648 materialı yayımlanıb. Onlardan 1124-ü xəbər, 276-sı müəllif yazıları, 248-i müsahibədir.




Universitetin rəsmi **sosial media** səhifələrinin işində də inkişaf tendensiyası əldə olunmuş, BDU haqqında yayımlanan bütün yazılar - müəllif yazıları, xəbərlər, analitik materiallar və elanlar operativ qaydada yayımlanmış, Universitetin sosial media hesabları effektiv formada idarə olunmuşdur.




Facebook sosial şəbəkəsində (Bakı Dövlət Universitetinin rəsmi səhifəsi) user sayı yüksələn xətt üzrə inkişaf etmişdir. 1 il ərzində bəyənmə sayı 22 788-dən 24 016-a

kimi artmışdır. Universitetin rəsmi **Facebook** səhifəsi 24 000 izləyici toplayıb. Facebook sosial şəbəkəsində il ərzində ≈1350 post paylaşılıb. Orta statistik məlumatlara əsasən ay ərzində 35 000 baxış sayı (post reach) olub.




Universitetin rəsmi **İnstagram** səhifəsi 13 200 izləyici toplayıb. Rəsmi instagram səhifəsində orta statistik məlumata görə ay ərzində 21 000 aktivlik sayı, 220 000 kliklənmə sayı, 75.202 baxış sayı (post reach) olub.




**Twitter** sosial şəbəkəsində hazırda 1258 izləyicisi var, hər paylaşıma ortalama 20 bəyənmə, 2 retvit, 2 rəy gəlir.




| | İzləyici | Bəyənmə | Retvit | Rəy |
|---|---|---|---|---|
| Oktyabr-Dekabr | 1258 | 20 | 2 | 2 |
| İyul-Sentyabr | 858 | 20 | 2 | 2 |
| Aprel-İyun | 500 | 10 | 1 | 0 |
| Yanvar-Mart | 200 | 0 | 0 | 0 |

**Telegram** sosial şəbəkəsində hazırda 5789 izləyici var, hər paylaşıma ortalama 1800-2000 nəfər baxır, 20 rəy yazılır, 10 paylaşım edilir.




Mətbuat və informasiya şöbəsi hər ilin yekununda universitetlə bağlı KİV-də işıq üzü görmüş məqalələrin **monitorinq və statistikasını** apararaq nəticəyə uyğun olaraq istiqamətlər müəyyənləşdirilir. Müxtəlif səpgili materiallar və jurnalist yazılarına diqqətlə yanaşıldıqda belə bir faktla rastlaşırıq ki, kütləvi informasiya vasitələri Bakı Dövlət Universitetinin həyatında baş verən hadisələri, ictimai maraq kəsb edən hər bir faktı diqqət mərkəzində saxlamış, bu hadisə və faktların oxuyuca, tamaşaçıya, dinləyiciyə çatdırılmasına xüsusi səy göstərmişdir.

İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi hesabat ilində **2 müsabiqəni** uğurla təşkil etmişdir. Belə ki, 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Heydər Əliyev - müstəqil Azərbaycanın xilaskarı və qurucusu" və 8 Noyabr - Zəfər Günü münasibətilə "44 günlük Zəfər salnaməsi" mövzusunda esse müsabiqəsi elan edilmişdir.

Vətən müharibəsində BDU-nun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıq göstərərək şəhid olan tələbə və məzunların xatirəsi Universitet kollektivi tərəfindən də yad edilir. Müharibə qaziləri və şəhid ailələri ilə görüşlər, müsahibələr KİV-də geniş yayımlanmışdır.

Sadalanan bütün fəaliyyətlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır. BDU-da müharibə dövrünü əhatə edən 2 layihə hazırda uğurla davam etdirilmişdir. İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi hər iki layihənin informasiya

təminatını həyata keçirmişdir. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" üzrə UNESCO kafedrası "**İşğal altında olmuş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair" Kompleks Beynəlxalq Hesabat**ın təqdimat mərasimində media nümayəndələrinin iştirakı təmin edilmişdir.

BDU-da **Vətən müharibəsi dövründə medianın fəaliyyətini** təhlil edəcək layihənin hazırlanmasında, eləcə də ərsəyə gəlməsində, təqdimatında şöbə fəal iştirak etmişdir.

COVID-19 pandemiyası ilə əlaqədar 2021-ci il 29 sentyabr tarixindən ənənəvi tədrisin bərpa edildiyi dövrdə BDU-nun ictimaiyyətlə əlaqələr və informasiya təminatı ənənəvi formada effektiv təşkil olunmuşdur. Universitetin tədris, təlim-tərbiyə prosesi, görülən işlər, elmi fəaliyyət və sosial həyatında baş verən yeniliklərlə, həyata keçiriləcək layihələrlə bağlı ictimaiyyətə müntəzəm olaraq operativ məlumat verilmişdir.

Bakı Dövlət Universitetinin görkəmli alim-mütəxəssisləri, ziyalıları, müəllimləri davamlı olaraq kütləvi informasiya vasitələrində çıxışlar etmiş, Universitet rəhbərliyinin, professor-müəllim heyəti və təlbələrinin hazırladığı müxtəlif səpkidə müəllif yazıları, analitik təhlilləri; BDU-da keçirilən onlayn (hibrid) respublika, beyləlxalq elmi konfranslar, ustad dərsləri, elmi seminarlar, disputlar, tədbirlər, görüşlər rəsmi veb saytda və ölkə mediasında geniş yayımlanmışdır. BDU-nun rəsmi internet səhifəsində, sosial media hesablarında, eyni zamanda BDU alimlərinin televiziya kanallarında yayımlanan proqramlarda iştirakı təmin edilmişdir. 60-dan çox professor-müəllim heyətinin TV və internet kanallarında iştirakı təşkil edilmiş, tələbə, magistrant, doktorantların, eləcə də, innovativ layihələr üzrə komandaların KİV-də müsahibələri işıqlandırılmışdır.

Ənənəvi təhsil sisteminə keçid ilə əlaqədar olaraq tədris üsulları, tələbələrin dərslərə davamlılığını təmin etmək məqsədilə mütəmadi məlumatlandırma materialları yayımlanmışdır.